

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 60 (20.961)

5 aprel 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Bu səfərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişlənməsi baxımından önəmi qeyd edildi. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

* * *

Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

* * *

Aprelin 4-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış etmişlər. Sonra jurnalistlərin sualları cavablandırılmışdır.



# Dövlət proqramı uğurla icra edilir

***Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi, həmçinin təhsil hüquqlarının təmin olunması daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu kateqoriyadan olan uşaqlara göstərilən diqqət və qayğının ifadəsidir.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, cari ilin I rübü ərzində dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası istiqamətində bir sıra işlər görülmüş, muxtar respublikada yaşayan məktəbəqədər yaşlı sağlamlıq imkanları məhdud 302 uşaq barəsində məlumat bazası yaradılmışdır. Bu kateqoriyadan olan 46 uşaq məktəbəqədər təhsil müəssisələrində qeydiyyatdadır. Rüb ərzində əqli və fiziki potensialları nəzərə alınaraq sağlamlıq imkanları məhdud 17 uşaq məktəbəqədər təhsil müəssisələrinə, o cümlədən müvafiq kateqoriyadan olan 4 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə cəlb edilmişdir. Muxtar respublikanın məktəbəqədər təhsil müəssisələrində keçirilən tədbirlərdə həmin müəssisələrdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların da iştirakı təmin edilir.

Əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən sağlamlıq imkanları məhdud uşaqlar barəsində də məlumat bazası yaradılmışdır. Bu qəbildən olan uşaqların sayı 19 nəfər təşkil edir ki, onların da distant tədrisə cəlb edilməsi nəzərdə tutulmuşdur. Distant tədrisə cəlb edilən uşaqlar məktəbli ləvazimatları ilə təmin olunacaqlar. Proqrama uyğun olaraq, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin təşkili üçün zəruri avadanlıqların hazırlanması istiqamətində işlər davam etdirilir.

2013-2014-cü tədris ilinin əvvəlindən ümumtəhsil müəssisələrinə cəlb edilə bilməyən eşitmə qabiliyyəti məhdud 12 uşaq distant dərslərə cəlb olunmuşdur. Hazırda dərslərin keçilməsi davam etdirilir.

Zehni inkişafında, nitqində qüsurları olan uşaqların reabilitasiyası məqsədilə Defektoloji bölmə tərəfindən təlim-məşğələlər keçilir. Məşğələlərə bu kateqoriyadan olan 15 uşaq cəlb olunmuşdur.

Muxtar respublikanın ümumtəhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlbinə, məktəb mühitinə tədricən uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılmışdır. Rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən muxtar respublikanın bütün ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin, o cümlədən sağlamlıq imkanları məhdud şagirdlərin peşə seçiminə köməklik məqsədilə onlara əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilir, həmçinin bununla bağlı sorğular keçiriləcəkdir.

Nazirlikdən onu da bildiriblər ki, rüb ərzində sağlamlıq imkanları məhdud uşaqların məktəbdənkənar müəssisələrə cəlb edilməsi istiqamətində də tədbirlər həyata keçirilmişdir. Bacarıq və maraqları nəzərə alınaraq bu kateqoriyadan olan 43 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, 12 uşaq müxtəlif idman qruplarına cəlb olunmuşdur.

Hazırda Naxçıvan Regional İnformasiya Mərkəzində 2013-cü ilin sentyabr ayından məktəb təhsili olmayan görmə qabiliyyəti məhdud şəxslər üçün brayl əlifbasının tədrisi üzrə təşkil edilmiş kurs davam etdirilir. Müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərini artırmaq məqsədilə sağlamlıq imkanları məhdud 77 uşaq mərkəzdə təşkil olunan məşğələlərə cəlb edilmişdir.

Hazırda muxtar respublikanın musiqi məktəblərində sağlamlıq imkanları məhdud 42 uşaq musiqi təhsili alır.

Məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya yaradılmışdır. Komissiya Naxçıvan şəhərində, Şərur, Kəngərli və Sədərək rayonlarındakı sağlamlıq imkanları məhdud uşaqların cəlb olunduğu məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələr olmaqla, ümumilikdə, 162 müəssisədə uşaqların tədrisdə iştirakının, peşə maraqlarının aşkar edilməsinin, ümumtəhsil müəssisələrində psixoloqlar tərəfindən sağlamlıq imkanları məhdud uşaqlara fərdi proqram əsasında həyata keçirilən tədbirlərin nəticələrinə dair monitorinqlər, eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə valideyn, şagird və müəllimlərlə görüşlər keçirmişdir. Həmçinin Naxçıvan Müəllimlər İnstitutu tərəfindən məktəb psixoloqlarının biliklərinin artırılması məqsədilə Şərur, Culfa və Ordubad rayonlarının ümumtəhsil müəssisələrində “Psixologiyanın aktual məsələləri və müasir kurikulumların tətbiqi” mövzusunda elmi-praktik konfranslar keçirilmiş və “Xüsusi qayğıya ehtiyacı olan şagird haqqında məlumat” kitabçası hazırlanmış, müvafiq rayonların təhsil şöbələrinə verilmişdir.

Dövlət proqramının icrası uğurla davam etdirilir.

**Xəbərlər şöbəsi**

***Dünən Culfa rayonunda Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə miqrasiya sahəsində hüquqi maarifləndirmə tədbiri keçirilib. Tədbiri giriş sözü ilə Culfa Rayon İcra Hakimiyyətinin şöbə müdiri Cəlil Ağayev açıb.***

## Miqrasiya sahəsində hüquqi maarifləndirmə tədbirinin keçirildiyi növbəti ünvan Culfa rayonu olub



Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin baş inspektoru Nemət Şükürov çıxış edərək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı, onlara Azərbaycan Respublikası ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi qaydaları haqqında danışıb. O, Azərbaycan Respublikasında əmək miqrasiyası və onun hüquqi tənzimlənməsi, miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətlər haqqında da iştirakçılara məlumat verib.

Sonra xidmətin əməkdaşlarından Kənan Məmmədovun, Şahin Nəbiyevin, Samir Sadiqovun çıxışları olub. Çıxışlarda qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında 3 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə qəbul edən tərəf və ya şəxs özü bu barədə şəxsən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə məlumat verir və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılırlar.

Bildirilib ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 30 gün qalmış bu barədə icazə alınması üçün şəxsən və ya qanuni nümayəndələri vasitəsilə müraciət etməlidirlər.

Miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozan şəxslərin məsuliyyəti barədə də söhbət açılan tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb, miqrasiya sahəsində maarifləndirici bukletlər paylanılıb.

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi” mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında” 2011-ci il 7 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, Naxçıvan şəhər mədəniyyətinin günümüzə qədər gəlib çatan mühüm tarixi abidələrindən olan Naxçıvanqalada əsaslı bərpa və yenidənqurma işləri aparılmışdır. Ümumi ərazisi 12 min kvadratmetrdən artıq olan qalanın divarları, bürcləri, qalanın giriş hissəsi bərpa olunmuşdur.***

# “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində son tamamlama işləri görülür





Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında” 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə burada yeni muzey yaradılmışdır. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilmiş dairəvi muzey binasında işlər başa çatdırılmış, fasad milli ornamentlərlə bəzədilmişdir. Muzeyin daxilində vitrinlər qurulmuş, Naxçıvanın müxtəlif tarixi dövrlərini özündə əks etdirən eksponatlar yerləşdirilmişdir.

Qalanın bərpasında isə “Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətinin və Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları çalışmışlar. Ümumi uzunluğu 1750 metr olan qala divarlarında işlər tamamlanmış, kompleks daxilində abadlıq işləri aparılmış, yaşıllıq zolaqları salınmışdır. Hazırda işıqlandırma sistemlərinin qurulmasında son tamamlama işləri görülür.

Məlumat üçün bildirək ki, ötən əsrin ortalarında Naxçıvanqalada aparılmış tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, saxsı qablar və Tunc dövründə (eradan əvvəl 3-2-ci minilliklər) duz mədənlərində əmək aləti kimi istifadə olunmuş daş gürzlər aşkar edilmişdir. Qeyd olunanlar sənətkarlığın inkişaf etdiyi və şəhər mədəniyyətinin formalaşdığı tarixi-etnoqrafik ərazilərdən biri kimi Naxçıvanqalanın əhəmiyyətini daha da artırır.

**Səbuhi HƏSƏNOV**









*Hər bir ölkənin konstitusiyası dövlətin siyasi əsaslarını, quruluşunu, tərkibində olan muxtar qurumların statusunu, səlahiyyət sferasını, o cümlədən muxtar qurumların beynəlxalq münasibətlərinin sferasını, bu sahədəki səlahiyyət çərçivəsini dəqiq xarakterizə edir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu unitar, hüquqi dövlət quruluşuna malik Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir. Azərbaycan tərkibində muxtar subyekt olan nadir dövlətlərdəndir ki, tərkibində muxtar dövlət statuslu muxtar respublika olduğu halda unitardır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikası ərazisində məcburidir.*

# Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələrin subyekti olması onu qoruyur, möhkəmləndirir



Naxçıvan muxtariyyətinin beynəlxalq və daxili hüquqi əsasları da qanunvericilik səviyyəsində təsbit olunmuşdur. Belə ki, Naxçıvanın muxtariyyət əldə etməsinin əsas beynəlxalq hüquqi sənədləri olan Moskva və Qars müqavilələri, daxili hüquqi əsası olan Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları Azərbaycanın qanunvericiliyinə əsasən, yüksək hüquqi qüvvəyə malik olmaqla Naxçıvanın muxtariyyətinin hüquqi əsaslarını təşkil edir. Azərbaycan Respublikasının Konstitusiya qanunu statusunda olan Naxçıvan Muxtar Respublikasının Konstitusiyası bir daha göstərir ki, Azərbaycan Respublikasının dövlət orqanlarının səlahiyyətinə aid edilməyən bütün digər məsələlər Naxçıvan Muxtar Respublikası tərəfindən həll edilir, onun səlahiyyətlərinə aid edilir. Lakin eyni zamanda Naxçıvan Muxtar Respublikasının səlahiyyətinə aid edilən məsələlərin həlli Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır.

Naxçıvan Muxtar Respublikası Konstitusiya ilə ona verilmiş səlahiyyətlər daxilində beynəlxalq münasibətlərə girmək hüququna malikdir. Muxtariyyətlərin beynəlxalq münasibətlərin subyekti olmasının hüquqi aspektlərini, onların bu sahədəki statusunu araşdırarkən müvafiq muxtariyyətin yaranmasının tarixini, siyasi məqamlarını, muxtar dövlətçiliyin formalaşmasının qanunauyğunluqlarını, mərkəzlə qarşılıqlı hüquqi əlaqə və bağlılıqlarını, konstitusion statusunu əlaqəli şəkildə nəzərə almaq lazımdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının beynəlxalq münasibətlərin subyekti olmasının hüquqi xarakteristikasını açmaq kimi mühüm hüquqi problemin tədqiqinin daha dərindən mənimsənilməsi üçün Naxçıvan Muxtar Respublikasının yaradılmasından bu günə kimi keçdiyi tarixi-siyasi yola qısa nəzər salmaqla onun yarandığı gündən beynəlxalq münasibətlər sferasında oynadığı rolu araşdırmaq lazımdır.

Naxçıvan ərazisində dövlət quruculuğu çox ağır siyasi, hərbi, ictimai proseslərin getdiyi bir dövrə təsadüf etmişdir. Naxçıvan 1918-ci ildə ermənilər tərəfindən ciddi hərbi-etnik təhlükə altına salınmışdı. Bu təhlükədən qorunmaq üçün 3 noyabr 1918-ci ildə Araz-Türk Respublikasının yaradılması qərara alınmışdır. 6 üzv və rəisdən ibarət olan hökumət yaradılmışdır ki, bu hökumətin heyətində Xariciyyə Nazirliyi də var idi. Bu posta Həsən ağa Şəfizadə təyin edilmişdi. Araz-Türk Respublikasının və hökumətin yaradılmasından sonra Xariciyyə Nazirliyinin yaydığı bəyanatda qeyd edilir ki, "Biz Arazkənarı və civarında bulunan müttəhidən bir milyona qədər islam camaatı kəndi hüququmuzu müdafiə üçün "Araz hökuməti" namında bir təşkilat yapıb və sair nəvahidə şöbələr açıb, camaat və millətimizin hüququnu mühafizə və müdafiə etməklə bərabər, heç bir millətin və dövlətin hüququna təcavüzümüz olmayacaqdır..."

Lakin bu dövrdə regionda ictimai və hərbi vəziyyətin dözülməz dərəcədə ağır və qarışıq olması, ardıcıl olaraq ingilislərin, daşnakların, amerikalıların regionda ağalıq etmək istəmələri Naxçıvanda stabil və ardıcıl dövlət quruculuğu prosesinin aparılmasına mane olmuşdur.

Naxçıvanda Sovet hakimiyyətinin qurulmasından sonrakı ilk illərdə onun siyasi statusu qeyri-müəyyən olmuşdur. Baş verən təlatümlü hərbi, siyasi, etnik toqquşmalar regionun çevik-avtonom idarə olunması üçün tarixi-siyasi zəmin hazırlamış, yerli rəhbərlər yarımmüstəqil addımlar atmağa başlamış, lakin eyni zamanda əvvəldə qeyd etdiyimiz kimi, bu addımları qanunvericilik çərçivəsinə salaraq onun tələbləri çərçivəsində hərəkət etmişlər. Naxçıvan diyarının siyasi-hüquqi statusunun qeyri-müəyyənliyinə 16 mart 1921-ci ildə Moskvada bağlanan sovet-türk müqaviləsi ilə son qoyulmuşdur.

13 oktyabr 1921-ci ildə bağlanmış Qars müqaviləsi Naxçıvanın siyasi statusunun təsbitini möhkəmləndirmişdir. Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, hələ Qarsda Zaqafqaziya respublikaları və Türkiyə arasında sülh konfransı keçirilərkən Naxçıvan SSR Xalq Komissarları Soveti tərəfindən Tağı Səfiyev adlı hörmətli bir müəllim məşvərətçi səs hüququ ilə Qarsa ezam edilmişdir. Bu hələ o dövrdə Naxçıvanın öz gələcək hüquqi statusuna, siyasi gələcəyinə göstərdiyi ciddi münasibətin göstəricisidir.

Naxçıvan SSR-in ilk Xalq Komissarları Soveti (XKS) 4 aprel 1921-ci ildə təşkil edilsə də, 11 oktyabr 1921-ci ildə əlavə olaraq Xalq Xarici İşlər, Xalq Xarici Ticarət komissarlıqları da təşkil edilmişdir. Lakin bu komissarlıqların işinin həcminin çox az olması onların qısa bir zamandan sonra ləğvinə səbəb olmuşdur. Belə ki, 16 iyun 1923-cü ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvan SSR ləğv edilərək Naxçıvan Muxtar Diyarı yaradılmışdır ki, bu zaman da Naxçıvan SSR-in XKS və Xalq komissarlıqları müvafiq olaraq Diyar İcraiyyə Komitəsinə və onun şöbələrinə çevrilmişlər. Naxçıvanın muxtariyyəti siyasi muxtariyyətdən inzibati-ərazi muxtariyyətinə çevrilmişdir. Bu isə hüquqi statusa təsirsiz ötüşməmiş, bununla Naxçıvanın səlahiyyət və funksiyaları azalmışdır. Lakin 9 fevral 1924-cü ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Naxçıvan MSSR yaradılmış, eyni zamanda Bahadur Vəlibəyov, Mir Cəfər Bağırov, Tağı Şahbazi Simurq və Ruhulla Axundovdan ibarət Konstitusiya komissiyası yaradılaraq onlara Naxçıvan MSSR-in Əsasnaməsinin hazırlanması tapşırılmışdır. Müvafiq Əsasnamə 23 mart 1924-cü il tarixdə təsdiq edilmiş və qüvvəyə minmişdir. Həmin Əsasnamənin 27-ci maddəsinin "b" bəndinə əsasən, Naxçıvan Sovetlər Qurultayı və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi həm də Naxçıvan MSSR-in ümumi siyasətinə rəhbərliyi müstəqil həyata keçirmək səlahiyyətinə malik olmuşdur. 18 aprel 1926-cı il tarixdə V Ümumnaxçıvan Sovetlər Qurultayında qəbul edilən Naxçıvan MSSR-in ilk Konstitusiyasının 15-ci maddəsinin "b" bəndinə əsasən isə Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin yalnız Naxçıvan MSSR-in daxili siyasətinə rəhbərliyi müstəqil həyata keçirmək səlahiyyətində olduğu təsbit edilirdi.

Naxçıvan MSSR-in Əsasnaməsinin yuxarıda adıçəkilən müddəasının tələblərindən göründüyü kimi, 1920-ci illərdə Naxçıvanda gedən hərbi, siyasi, beynəlxalq proseslər Naxçıvanın müstəqil beynəlxalq münasibətlərdə olmasını labüd etmişdir və qanunvericilik də ona bu səlahiyyətin verilməsini öz normalarında əks etdirmişdir. Bu illərdə Naxçıvan MSSR İran, Türkiyə kimi qonşu xarici dövlətlərlə, Zaqafqaziya respublikaları ilə diplomatik və iqtisadi-ticari əlaqələri konsulluq və nümayəndəlik vasitəsilə həyata keçirmişdir. Maku, Xoy və Təbriz şəhərlərində Naxçıvan MSSR-in konsulluqları, Türkiyənin Qars şəhərində RSFSR Konsulluğu yanında Naxçıvan MSSR müvəkkilliyi yaradılmışdır.

Gümrü müqaviləsinin tələblərinə əsasən, Naxçıvanda yerləşdirilmiş türk qoşunları Türkiyənin Naxçıvandakı hərbi nümayəndəliyi vasitəsilə idarə olunurdu. Lakin türk qoşunlarının ərazidən çıxarılması, sovet-türk münasibətlərində sərinləşmənin əmələ gəlməsi 1924-cü ilin iyul ayında Türkiyənin Naxçıvan MSSR-dəki hərbi nümayəndəliyinin bağlanmasına səbəb olmuşdur.

İranın Naxçıvan MSSR-dəki Konsulluğu 17 noyabr 1938-ci ilədək fəaliyyət göstərmişdir. İranın Naxçıvan MSSR-dəki konsulu Abbas xan Mühacir (1926-1938) olmuşdur. Naxçıvan MSSR-in İrandaki konsulları Makuda İsmayıl bəy Camalbəyov, Təbrizdə isə Qasım bəy Camalbəyov idi.

Lakin sovet totalitarizminin ən yüksək həddə çatması, mərkəzləşdirmə prinsipinin hökm sürməsi iki (o zamanın siyasi şərtləri əsasında) xarici, bir müttəfiq respublika ilə qonşu olan Naxçıvan Muxtar Respublikasının beynəlxalq münasibətlərə girmək səlahiyyətlərinə tamamilə son qoymuşdur.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, xarici dövlətlərin əhatəsində eksklav təşkil etməsi ona müstəqil beynəlxalq münasibətlərə girmək hüququ kimi həyati vacib haqq əldə etməyə imkan vermişdir.

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının, eləcə də dünyanın elə bir coğrafi məkanında yerləşir ki, bu coğrafi mövqe ona daha çox geopolitiklik və beynəlxalq həssaslıq gətirir. Muxtar respublikanın üç xarici ölkənin sərhədində yerləşməsi onun beynəlxalq münasibətlərdə müstəqil iştirakını (daha çox mədəniyyət, iqtisadiyyat, nəqliyyat, kommunikasiya sahələrində) labüd etmişdir. Azərbaycanın müstəqillik əldə etməsindən sonra Naxçıvan Muxtar Respublikasının əksər hissəsinin həmsərhəd olduğu Ermənistan Respublikası Naxçıvana qarşı daim ərazi iddiaları irəli sürmüş, onu blokada şəraitində yaşamağa məcbur etmişdir. Regionda belə beynəlxalq əhəmiyyətli ağır vəziyyətin hökm sürdüyü bir şəraitdə Naxçıvan Muxtar Respublikası regionun təhlükəsizliyinin qorunmasının təmin edilməsi məqsədilə öz səlahiyyətləri daxilində beynəlxalq münasibətlərə girərək regionun, həm də Azərbaycanın beynəlxalq miqyasda tanınmasına və etibarının artmasına xidmət edir.

Naxçıvan Muxtar Respublikası ötən əsrin 90-cı illərinin əvvəllərindən blokadaya salınmışdır. Naxçıvanın bu vəziyyətdən xilası o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur. Belə ki, Bakıda Daimi Nümayəndəliyin təsisi, İrana və Türkiyəyə işgüzar səfərlər həyata keçirilməsi, müqavilələrin bağlanması, dünya birliyinə Azərbaycanın və Naxçıvanın haqq səsinin çatdırılması ilə əlaqədar notaların ünvanlanması, sərhədyanı ticarətin inkişafına rəvac verilməsi, Dövlət Gömrük Komitəsinin yaradılması, yeni sərhəd gömrük-keçid məntəqələrinin açılması Naxçıvanın beynəlxalq əlaqələrinin müasir dövrdə əsasının qoyulmasına xidmət etmişdir. Bu kurs ondan sonrakı dövrdə də qonşu ölkələrlə, onların sərhədyanı inzibati vahidləri ilə əlaqələrin daha da inkişafı və şaxələnməsini şərtləndirmişdir.

Muxtar dövlət statuslu Naxçıvan Muxtar Respublikasının Konstitusiyası onun beynəlxalq münasibətlərdəki yerinin, rolunun və səlahiyyətlərinin bəzi məqamlarını özündə əks etdirir. Belə ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əsasən, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətdə, muxtar respublikanın mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil edir.

Azərbaycan Respublikasının həmsərhəd, eləcə də digər dövlətlərlə və beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni münasibətlərinin genişlənməsini və Naxçıvan Muxtar Respublikasının bu münasibətlərdə iştirakını nəzərə alaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin – Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının müvafiq vəzifə və funksiyalarının Naxçıvan Muxtar Respublikasında fasiləsiz və ardıcıl həyata keçirilməsini, Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikası İdarəsi yaradılmışdır. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində Naxçıvan Muxtar Respublikasının iştirakı Xarici İşlər Nazirliyi ilə razılaşdırmaqla və əlaqələndirməklə, zəruri hallarda isə idarənin və (və ya) nazirliyin digər struktur bölməsinin iştirakı ilə həyata keçirilir.

*Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələrin subyekti olması onu qoruyur, möhkəmləndirir. Bu, bir tərəfdən qanunvericiliyin Naxçıvan Muxtar Respublikasının beynəlxalq münasibətlərə çıxmaq üçün verdiyi çərçivənin hüdudlarından asılıdırsa, digər tərəfdən Naxçıvan Muxtar Respublikasının tarixi vərənpərvərlik ənənələrindən irəli gəlir. Qanun və sosioloji faktorun birgə fəaliyyəti bu sahədə daha da müvəffəqiyyət əldə etməyə, ümumi maraqları qorumağa imkan verir. Yaddan çıxarmaq lazım deyil ki, Naxçıvanın muxtariyyət əldə etməsinin əsasları dini, etnik, siyasi deyil, coğrafi-inzibati əsaslardan ibarətdir. Naxçıvan Muxtar Respublikasının beynəlxalq münasibətlərin subyekti hüququna malik olması onun təhlükəsizliyinin qorunması deməkdir. Belə operativ rıçaqlara malik olmadan Naxçıvan Muxtar Respublikası heç vaxt düşdüyü ağır blokadadan yaxa qurtara bilməzdi və gələcəkdə də belə hüquqa malik olmadan bu təhlükəsizliyin daimiliyinə təminat verilə bilməzdi.*

**Zaur BAĞIROV**
*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük nəzarətinin təşkili şöbəsinin rəisi*

7 aprel Ümumdünya Sağlamlıq Günüdür

# Muxtar respublikada insanların sağlamlığına xüsusi diqqət yetirilir

*Ümumdünya Səhiyyə Təşkilatı 1948-ci il aprelin 7-də yaradılmış, 1950-ci ildən başlayaraq aprelin 7-si təşkilata üzv dövlətlər tərəfindən “Ümumdünya Sağlamlıq Günü” kimi qeyd olunmağa başlanmışdır. Azərbaycan 1992-ci ildən Ümumdünya Səhiyyə Təşkilatının üzvlüyünə qəbul edilmiş, 1994-cü ildə təşkilatın ölkəmizdə əlaqələndirmə ofisi yaradılmışdır.*

İnsan sağlamlığı bütün dövrlər üçün cəmiyyətin ən qiymətli sərvəti hesab olunmuşdur. Məhz buna görə də müasir dövrdə hər bir dövlətin iqtisadi qüdrəti bir sıra mühüm amillərlə yanaşı, həm də milli səhiyyə sisteminin inkişaf səviyyəsi ilə ölçülür. Bu gün Azərbaycanda da həyata keçirilən sosial siyasətin əsas prioritet istiqamətini səhiyyə islahatları təşkil edir. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana hər iki rəhbərliyi dövründə səhiyyə sistemi inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Ölkəmizdə ötən əsrin 70-ci illərində əsası qoyulan səhiyyə islahatları müstəqillik dövründə daha da inkişaf etdirilmiş, müasir tibb ocaqları tikilərək istifadəyə verilmişdir. Dahi şəxsiyyətin müxtəlif vaxtlarda imzaladığı fərman və sərəncamlarla bu sahənin qanunvericilik bazası təkmilləşdirilmiş, əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyəti xeyli yüksəldilmişdir. Səhiyyəni cəmiyyət və dövlət həyatında mühüm sahə kimi qiymətləndirən ulu öndərimiz demişdir: ***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir”.***

Ümummilli liderin səhiyyə sahəsində müəyyənləşdirdiyi strateji xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əhalinin sağlamlığının qorunması, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, habelə səhiyyə infrastrukturunun müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Qəbul edilən dövlət proqramlarının uğurlu icrası ölkəmizdə səhiyyəni yeni inkişaf mərhələsinə yüksəltmişdir.

Səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə muxtar respublikada da mühüm işlər görülür. Bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, müasir tibb ocaqlarının tikintisi, əhalinin sağlamlığı üzrə tədbirlərin və səhiyyə maarifi işinin təşkili sahəsində müxtəlif layihələrin icrası diqqət mərkəzində saxlanılır.

Muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının başlıca məqsədi əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Hazırda muxtar respublikada əhaliyə 235 tibb müəssisəsi tərəfindən səhiyyə xidməti göstərilir. Səhiyyə sistemində aparılan geniş-



Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

miqyaslı quruculuq tədbirlərinə uyğun olaraq, təkcə 2013-cü ildə muxtar respublikanın kəndlərində 9 həkim ambulatoriyası və 10 feldşer-mama məntəqəsi istifadəyə verilmişdir. 2014-cü ildə də quruculuq tədbirləri davam etdirilmiş, Babək Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı olmuş, Cəhri Kənd Sahə Xəstəxanasının binasında əsaslı yenidənqurma işləri aparılmışdır. Hazırda Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin, Dəri-Zöhrəvi Dispanserinin və Qazanılmış İmmun Çatışmazlığı Sindromu ilə Mübarizə və Profilaktika Mərkəzinin tikintisi, Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulması davam etdirilir.

Ölkə Prezidenti cənab İlham Əliyev muxtar respublikada səhiyyə quruculuğu sahəsində görülən işləri yüksək dəyərləndirərək demişdir: ***“Yeni xəstəxanaların açılışı artıq Naxçıvanda gözəl ənənəyə çevrilibdir... Onların hamısı yüksək keyfiyyətlə tikilib, yüksək standartlara cavab verir. Çox sevindirici haldır ki, muxtar respublikanın bütün rayonlarında gözəl, yeni müasir tibb ocaqları tikilir. Burada quraşdırılan avadanlıq ən yüksək səviyyəyə layiqdir. Həm həkimlər üçün, həm də xəstələrin müalicəsi üçün bütün şərait var”.***

Səhiyyə infrastrukturunun müasirləşdirilməsi və ixtisaslı kadrların hazırlanmasının nəticəsidir ki, muxtar respublika əhalisinin Naxçıvandan kənarda müayinə və müalicə olunmalarına ehtiyac qalmamışdır. Tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə mütəmadi olaraq seminar və konfranslar keçirilir, həkimlər təkmilləşdirmə kurslarına göndərilir. Artıq muxtar respublika həkimləri açıq ürək, laporoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatlar aparır, səhiyyə müəssisələrinin ambulator bölmələri tibbi xidmətin əhatə dairəsini genişləndirirlər. Bir sözlə, tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi hər bir naxçıvanlıya öz sağlamlığını qorumaq imkanı yaratmışdır.

Səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Yüksəkixtisaslı həkim briqadalarının muxtar respublikaya gətirilməsi və xüsusilə aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili işi də diqqət mərkəzində saxlanılır. Təkcə ötən il ərzində yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, muxtar respublikada 319 cərrahi əməliyyat, o cümlədən 67 xəstədə açıq ürək, 7 xəstədə periferik damar, 77 xəstədə angioqrafiya, 75 xəstədə göz və 64 xəstədə müxtəlif əməliyyatlar aparılmışdır. Bir məsələni də qeyd edək ki, bu gün Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir.



Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 iyul 2011-ci il tarixli Fərmanına uyğun olaraq, səhiyyə sistemində elektron xidmətlərin göstərilməsinə başlanmış, nümunəvi tibbi informasiya sistemi qurulmuşdur. Lokal şəbəkəyə qoşulan və yüksək proqram təminatına malik olan bu sistem vasitəsilə muxtar respublikanın səhiyyə müəssisələri arasında elektron informasiya mübadiləsi aparılır.

Naxçıvanda sağlamlıq turizminin inkişafı da diqqət mərkəzindədir. Hazırda Duzdağ Fizioterapiya Mərkəzində və Darıdağ Arsenli Su Müalicəxanasında yerli və xarici ölkə vətəndaşlarına hərtərəfli səhiyyə xidməti göstərilir.

Əhali arasında səhiyyə maarifinin gücləndirilməsi və yerlərdə onlara tibbi xidmət göstərilməsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Doğum Mərkəzi, Mərkəzi Uşaq Xəstəxanası, dispanserlər, eləcə də rayon mərkəzi xəstəxanaları tərəfindən yaradılmış həkim briqadalarının böyük rolu vardır. Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq məqsədilə yaradılmış həkim briqadaları yerlərdə müayinə-müalicə işini təşkil edir. Təhsil işçiləri arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün profilaktik kütləvi mammoqrafiya müayinələri, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə şagirdlər arasında tuberkulin sınağı, flüoroqrafiya müayinəsi, eləcə də kütləvi oftalmoloji, stomatoloji, ortopedik, psixiatrik, endokrinoloji müayinələri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Ölkə Prezidenti cənab İlham Əliyevin əhalinin kütləvi tibbi müayinədən keçirilməsi barədə verdiyi tapşırığa əsasən, muxtar respublikanın səhiyyə müəssisələri xüsusi iş rejimində fəaliyyət göstərir. Bu ilin fevral ayında başlanan kütləvi müayinələr zamanı muxtar respublikada 193 min 248 vətəndaş tibbi müayinədən keçirilmişdir. Xəstəliklərin erkən aşkara çıxarılması və insanların vaxtında müalicəyə cəlb olunması baxımından mühüm əhəmiyyət daşıyan bu tədbir hazırda davam etdirilir.

Əhalinin sağlamlığının qorunmasında onların tibbi biliklərinin artırılması, xüsusilə səhiyyə maarifi işi vacib məsələdir. Məhz bu maarifləndirmə tədbirlərinin nəticəsidir ki, muxtar respublikada uşaqlar arasında qoruyucu peyvəndlər vaxtlı-vaxtında vurulur. Bu da bəzi yoluxucu xəstəliklərin tamamilə aradan qaldırılmasına, bəzilərinin isə minimuma endirilməsinə səbəb olmuşdur. Ötən il yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə profilaktik və əks-epidemik tədbirlər keyfiyyətlə aparılmış, dezinfeksiya, dezinseksiya və delarvasiya tədbirləri ardıcıl olaraq davam etdirilmişdir. Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə vaxtaşırı aparılan profilaktik və əks-epidemik tədbirlərin nəticəsidir ki, muxtar respublika ərazisində əhali arasında poliomielit, difteriya və malyariya xəstəliyi qeydə alınmır.

***Bir sözlə, muxtar respublikada səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sahədə aparılan islahatlar əhalinin sağlamlığının etibarlı qorunmasına şərait yaratmışdır. Ağxalatlı peşə sahibləri bundan sonra da əhaliyə nümunəvi tibbi xidmət göstərəcək, ən dəyərli nemətimiz olan insan sağlamlığının qorunmasının keşiyində dayanacaqlar.***

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Siması dəyişən Nuh nəfəsli Əcəmi yurdu gözəlliklər məskəninə çevrilib

***Hər daşı, qayası ox nişanlı, hər zümrüd gözlü bulağının pıçıltısında həzin ana laylası çağlayan doğma Naxçıvan diyarımız, qədimdən-qədim Naxçıvan şəhəri bina olandan bəri heç vaxt, heç zaman indiki kimi abadlıq adlı sevincin vüsalına qovuşmayıb. Bunu inkar etməyə kimsənin dili gəlməz. Sadəcə, bu inkişafı və tərəqqini görənlər təəccüblənə bilərlər. Təəccüblənə bilərlər ki, son illər ərzində neçə-neçə keçilməz yollar keçib Nuh nəfəsli Əcəmi yurdu. Bu yerdə xəyal məni istər-istəməz bir qədər əvvəllərə, babamın söylədikləri o vaxtkı Naxçıvan şəhərinin uçub sökülən küçələrinə çəkib aparır.***



Babam deyirdi ki, gecələrin laldinməz sükutunu pozan qatarların səhərəcən səngimək bilməyən hərəkət səsi elə bil bu gün də qulaqlarımda səslənir. Nələr daşımırdı polad relslər üzərində hərəkət edən bu yük karvanları. Naxçıvan şəhərindəki dəmiryol vağzalının həndəvərində inşaat materiallarından təpələr yaranmışdı. Və bəzən uzun müddət lövbər salaraq öz sahibini gözləyirdi. Burada taxta-şalbandan, kubik daşından, sementdən, şüşədən tutmuş adi mismara qədər nə desəydin, tapılardı. Ancaq təəssüflər olsun ki, bunlardan istifadə etməyə imkan verilmirdi. İnşaat materialları almaq və ondan istifadə etmək əlçatmaz idi.

Sevindirici haldır ki, bu gün inşaat materiallarından istifadə tam sərbəstdir. Bunun nəticəsidir ki, bu gün köhnə binalar elə yenilənib ki, babam yaşasaydı, bu gördüklərinə nağıl kimi baxardı. Erməni qəsbkarlarının yaratdığı ağır blokada şəraitinə baxmayaraq, Naxçıvan inkişaf yollarında inamlı addımlar ataraq tərəqqi zirvəsindəki gül çələnginə, çiçək ətrinə bürünür. Üzümüzə yeni ülvi arzularla açılan hər nurlu sabah sevinc müjdəli bir yeniliklə əlamətdar olur. Xüsusən də günü-gündən gözəlləşən Naxçıvan şəhərində.

Son 19 ilə yaxın müddətdə şəhərimiz, sözün həqiqi mənasında, yeniliklər dövrünü yaşayır. Bu illər ərzində şəhərimizin elə bir ünvanı olmayıb ki, orada yeni bir bina inşa olunmasın, yol çəkilməsin, parklar, istirahət mərkəzləri yaradılmasın, tarixi abidələr bərpa olunmasın. Danılası deyil ki, biz qələm sahibləri də yurdumuzu başdan-başa öz əhatəsinə alan quruculuq-abadlıq işlərindən mənəvi qida alıb gücümüzə sarıldıqca özümüzü özümüzdə tapırıq. Hər şey gözəl, könülaçan olduğundan biz də yenilik, gözəllik haqqında düşünürük. Hər dəfə düşündükcə də gözümüzdəki sevinc, qəlbimizdəki rahatlıq hissi bizi xoş sabahlara daha ümid və inamla bağlayır. Saysız-hesabsız tikililər, öz simasını dəyişən küçələr, rahatlığı, təmizliyi ilə seçilən istirahət guşələri, parklar, xiyabanlar torpağa insan əli ilə çəkilən əsrarəngiz naxışlar kimi göz oxşayır. Şəhərimizə gözəllik verən müasir abidələrdən biri də fəvvarələrdir. İndi şəhərimizin ən görməli yerlərində bir-birindən gözəl fəvvarələr quraşdırılıb. Blokadanın ilk illərində ağacları kəsilərək yanacaq kimi istifadə olunmuş parklarda indi yaşıllıqlar göz oxşayır, qəlbləri riqqətə gətirir.

Həqiqətən də, yeniliklər Naxçıvan şəhərinə əfsanəvi yaraşıq bəxş edib. Burada salınan gözəl görünüşlü binalar milli ornamenti ilə göz oxşayır. Binaların ətrafı da aparılan abadlıq-quruculuq işlərindən öz nəsibini alıb.

*Şəhərimizdə diqqəti çəkən məqamlardan biri də təmizliyə və səliqə-sahmana xüsusi diqqət yetirilməsidir. Buraya gələn qonaqlar da etiraf edirlər ki, indiyə qədər olduqları ölkələrdə təmizliyə belə diqqət yetirilən şəhərlə çox az rastlaşıblar. Təbii ki, bu, muxtar respublika sakini kimi bizi sevindirir, gələcək işlərdə daha inamlı və qətiyyətli olmağa ruhlandırır.*

**Türkan HÜSEYNLİ**

*Ölkəmizdə bütün sahələrdə çalışanların əməyinin qiymətləndirilməsi ənənəsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində formalaşmışdır. O illərdə fərqlənənlər, öz işlərinə vicdanla yanaşanlar, dövlət quruculuğunda fəal iştirak edənlər dövlət mükafatları ilə təltif olunmuş və Azərbaycanda nümunəyə çevrilmişlər. Bu ənənə muxtar respublikamızda uğurla davam etdirilir, Naxçıvanın inkişafında zəhməti olanların, fədakarlıq göstərənlərin əməyi yüksək qiymətləndirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 aprel tarixli Sərəncamı ilə bir qrup şəxs muxtar respublikanın fəxri adlarına layiq görülmüşdür. Fəxri adlara layiq görülənlərdən bir neçəsini redaksiyamıza dəvət edib təəssüratlarını öyrəndik.*

# Zəhmətlə yaşanan ömrün, gedilən yolun daim bəhrəsi olur



**Müzəffər ƏSGƏROV – əməkdar jurnalist:** Uzun illərdir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində işləyirəm. Hazırda komitənin Televiziya, sənədli filmlər və dublyaj redaksiyasının baş redaktoru vəzifəsində çalışıram. İndiyə kimi bir sıra filmlərin və tamaşaların ssenari müəllifi olmuşam. Rejissoru olduğum filmlərə ürək qoyuram. Ümumiyyətlə, hansı peşə, iş olursa-olsun, onun üçün zəhmət çəkməlisən. Və düşünürəm ki, zəhmətsiz gedilən yolun sonu, zəhmətsiz həyatın bəhrəsi yoxdur. Zəhmətlə yaşanan ömür, gedilən yol daim bəhrəli olur. Hər zaman bunu həyat devizimə çevirmişəm. Sevinirəm ki, çalışdığım sahədə zəhmətim hədər getməyib. Dövlətimiz əməyimi yüksək qiymətləndirdi. "Naxçıvan Muxtar Respublikasının əməkdar jurnalisti" fəxri adına layiq görülməyim mənə həyatda verilən ən böyük mükafatdır. Bu gün biz jurnalistlərin pis işləməyə haqqı yoxdur. Çünki bu gün muxtar respublikamızda kütləvi informasiya vasitələrinin inkişafına yüksək dövlət qayğısı göstərilir. Bu qayğıdan əməkdaşı olduğum Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə də böyük pay düşüb.



**İdris ƏLİYEV – əməkdar müəllim:** 1955-ci ildə Şərur rayonunun Aşağı Aralıq kəndində anadan olmuşam. 39 ildir ki, müəllim işləyirəm. Çalışdığım təhsil ocağında müəllimlər şagirdlərin təlim-tərbiyəsi ilə ciddi məşğul olurlar. Onların və mənim bu qədər həvəslə işləməyimizin səbəbi dövlətimizin təhsilə göstərdiyi yüksək qayğıdır. Bu gün Prezidentimizin qayğısı ilə Azərbaycanın ən ucqar kəndlərində belə, yeni-yeni məktəblər tikilir və ya köhnə məktəblər əsaslı təmir olunur, məktəblərə ən müasir avadanlıqlar verilir. Elə dərs dediyim Şərur rayon Gümüşlü kənd tam orta məktəbinin binası da ötən il əsaslı təmir olunub. Məktəbimizdə elektron lövhəli siniflər, kompüter otaqları fəaliyyət göstərir. Çox zəngin kitabxana müəllim və şagirdlərin ixtiyarına verilib.

Bu gün muxtar respublikada müəllimlərin əməyinin yüksək qiymətləndirilməsi də təhsilin inkişafına böyük təkan verir, müəllimlərimiz daha da ruhlanırlar. Əməyimin yüksək dəyərləndirilməsi məni çox sevindirdi. Söz verirəm ki, bundan sonrakı fəaliyyətimlə mənə göstərilən bu etimada layiq olmağa çalışacağam.



**Həbibə ALLAHVERDİYEVA – əməkdar rəssam:** Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Təsviri incəsənət kafedrasının baş müəllimiyəm. "Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı" fəxri adına layiq görülməyim mənim üçün çox sevindirici və şərəflidir. O baxımdan ki, Naxçıvan Muxtar Respublikasının 90 illiyinin geniş şəkildə qeyd olunduğu bir vaxtda fəxri ada layiq görülməyin sevinci daha başqadır.

Hər bir insanın həyatda bir amalı, bir ideyası olur və o amal, ideya üçün çalışır. Mənim amalım yaratdığım əsərlər vasitəsilə xalqımın tarixini, keçmişini, bugünkü yüksək səviyyədə inkişaf edən ölkəmizin milli adət-ənənələrini, mədəniyyətini tamaşaçılara çatdırmaq, onu tanıtmaq və təbliğ etməkdir. Bunun üçün isə muxtar respublikamızda mədəniyyətin, incəsənətin inkişafı istiqamətində müxtəlif addımlar atılır. Yaradılan şəraitdən səmərəli istifadə edən mədəniyyət işçisinin uğur qazanması da təbiidir. Naxçıvanda yaradıcı gənclərə böyük qayğı göstərilir: onların fərdi sərgiləri təşkil edilir, xarici ölkələrdə keçirilən sərgilərdə əl işləri nümayiş olunur. Bütün bunlar isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə həyata keçirilir. Məhz onun qayğısı sayəsində biz böyük uğurlara imza atırıq.



**Mətləb İBRAHİMOV – əməkdar həkim:** Müxtəlif xəstəxanalarda həkim kimi fəaliyyət göstərmişəm. Hazırda Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkimi olmaqla yanaşı, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində dərs deyirəm. Həm də "Naxçıvan Muxtar Respublikasında yeni doğulmuş uşaqlarda anadangəlmə inkişaf qüsurlarının rastgəlmə tezliyi" mövzusunda dissertasiya işini müdafiə edərək tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almışam. Həkimlik ağır bir peşədir. Bəzən həyatla ölüm arasındakı zaman məsafəsi saatla, dəqiqələrlə deyil, saniyələrlə ölçülür. Buna görə cüzi bir səhv belə, yolverilməzdir. Bu gün muxtar respublikamızda biz həkimlərin fəaliyyəti üçün hər cür şərait yaradılıb. Muxtar respublikanın səhiyyə ocaqlarında yaradılan şəraitin, tibb müəssisələrinin maddi-texniki bazasının, müasir avadanlıqlarla təchizatının bölgədə analoqu yoxdur.

Mənə verilən "Naxçıvan Muxtar Respublikasının əməkdar həkimi" fəxri adını həkim əməyinə verilən yüksək ad kimi qiymətləndirərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm. Bundan sonra da daha səylə işləyəcəyimə, insanların sağlamlığının keşiyində dayanacağıma söz verirəm.



**Gültəkin HÜSEYNOVA – əməkdar müəllim:** Kəngərli rayon Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin müəllimiyəm. Sevincimi paylaşmaq istərkən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, yüksək savadlı və vətənpərvər gənclər yetişdirmək. Bunun üçün dövlət orqanları nə lazımdırsa həyata keçirir və bundan sonra da təhsil müəssisələrinin normal fəaliyyəti üçün bütün tədbirlər görüləcəkdir. Lakin müəllim, pedaqoq əməyi olmadan yaradılan təhsil müəssisələri özlüyündə heç bir məna ifadə etmir"*** sözlərini xatırlatmaq istəyirəm. Doğrudan da, belədir. Əgər hər cür maddi-texniki baza ilə təmin olunmuş bir məktəbdə peşəsini sevən, ölkəsinin gələcəyinin əmanət edildiyi gənc nəslin yetişməsində gərgin əmək sərf edən savadlı müəllimlər yoxdursa, o təhsil müəssisəsində heç bir uğurdan danışmaq olmaz. Sevindirici haldır ki, muxtar respublikamızda əməksevər, savadlı, öz peşəsinin vurğunu olan müəllimlərimiz çoxdur və onların əməyi yüksək dəyərləndirilir.

**Hazırladı: Sara ƏZİMOVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin mart ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2243401 | 224340 | 283159 | 126,2 |
| 2. | Culfa rayonu | 1057061 | 105706 | 118771 | 112,4 |
| 3. | Ordubad rayonu | 1192790 | 119279 | 127910 | 107,2 |
| 4. | Şahbuz rayonu | 679701 | 67970 | 72272 | 106,3 |
| 5. | Sədərək rayonu | 292181 | 29218 | 30677 | 105,0 |
| 6. | Şərur rayonu | 1851720 | 185172 | 191140 | 103,2 |
| 7. | Babək rayonu | 2309711 | 230971 | 233274 | 101,0 |
| 8. | Kəngərli rayonu | 1031774 | 103177 | 100635 | 97,5 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 7034486 | 703034 | 637399 | 90,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **17692825** | **1768867** | **1795237** | **101,5** |

*Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Əlahiddə Ümumqoşun Ordusunun təşkilatçılığı ilə "Cəsurlar" hərbi idman və turizm oyununun muxtar respublika zona birinciliyi keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*

# Hərbi idman və turizm oyununun muxtar respublika birinciliyi keçirilib



Gənclər və İdman Nazirliyinin əməkdaşı Canməmməd Canməmmədov yarışı açıq elan etdikdən sonra turnirin reqlamenti barədə məlumat verib.

Sonra Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev, Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov çıxış ediblər.

Muxtar respublika birinciliyində 9 komanda öz gücünü sınayıb. "Naxçıvan-1" və "Naxçıvan-2" komandaları Naxçıvan şəhərini təmsil etdiyi halda, digər 7 komanda muxtar respublikamızın rayonlarını bu yarışda layiqincə təmsil etməyə çalışıb. Komandalar reqlamentə uyğun olaraq, 10 növ üzrə yarışıblar. Belə ki, gənc məktəblilər ilk olaraq sıra hazırlığında öz bacarıqlarını göstəriblərsə, digər mərhələdə onlar daha çətin sınaq qarşısına çıxıblar. Taxta hasarın üstündən keçməklə maneənin dəf olunması, körpünün üstündən keçməklə xəndəyin dəf olunması, kəndir vasitəsilə təhlükəli zolağın qət olunması, kəndir vasitəsilə yüksəkliyə dırmanma, yüksəklikdən enmə və yerdə sürünməklə maneənin dəf olunması mərhələləri məktəbli gənclərə əzmkarlıq nümayiş etdirməyə fürsət verib. Bununla yanaşı, yarış iştirakçıları istehkamdan hədəfə qumbaraatma, zəhərli zonanın dəf olunması, yaralının döyüş zonasından çıxarılması və turist çadırının qurulması mərhələlərində də öz bacarıqlarını nümayiş etdiriblər. Yekun nəticəyə görə, Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəbin komandası birinciliyin qalibi olub. Culfa rayon Saltaq kənd tam orta məktəbinin komandası ilə Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbin komandası ikinci və üçüncü yerləri bölüşüblər.

Qeyd edək ki, zona birinciliyinin qalibləri olan iki komanda may ayında Bakıda keçiriləcək respublika birinciliyinə vəsiqə qazanıblar.

**Ceyhun MƏMMƏDOV**

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına

## *2014/2015-ci tədris ili üçün əyani təhsil üzrə kursant (müdavim) qəbulu qaydaları*

Fövqəladə Hallar Nazirliyinin Akademiyasına "Yanğın təhlükəsizliyi mühəndisliyi" və "Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" ixtisasları üzrə qəbul olmaq istəyən namizədlər boyu azı 160 santimetr, tam orta təhsilli və ya orta məktəbin buraxılış sinfində oxuyan, 16 yaşından yuxarı ("Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" ixtisası üzrə isə 01.05.2014-cü il tarixinədək 17 yaşı tamam olan), yaxud müddətli həqiqi hərbi xidmət keçmiş və ehtiyatda olan 23 yaşınadək Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilirlər.

Namizədlər Fövqəladə Hallar Nazirliyi tərəfindən müəyyən edilmiş qaydalara müvafiq olaraq nazirliyin xüsusi həkim ekspertiza komissiyasında, həmçinin fiziki hazırlıq və seçmə komissiyalarında sınaq və yoxlamalardan keçməlidirlər.

Sınaq və yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin ərizələri rəsmiləşdirilir və onlar Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilmiş cədvəl üzrə mərkəzləşdirilmiş qaydada keçirilən test imtahanlarında iştirak edirlər.

Qəbul imtahanı I ixtisas qrupuna daxil olan fənlər üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı qaydalarla Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və "Abituriyent" jurnalında verilən elanlar vasitəsilə tanış olmaq mümkündür.

Akademiyaya qəbul olan şəxslər təhsil müddətində yemək, xüsusi geyim forması, yataqxana ilə təmin olunur və təqaüd alırlar.

Təhsil müddəti 4 ildir və təhsil Azərbaycan dilində aparılır.

Akademiyanın məzunlarına "Yanğın təhlükəsizliyi mühəndisliyi", "Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" ixtisasları üzrə bakalavr dərəcəsi, hərbi və ya xüsusi rütbələr verilir, onlar Fövqəladə Hallar Nazirliyi sistemində müvafiq vəzifələrə təyin edilirlər.

Akademiyaya qəbul olunmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*-tərcümeyi-hal;*

*-şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin dövlət notariusu tərəfindən təsdiq olunmuş surəti;*

*-tam orta təhsil haqqında sənədin əsli və surəti, yaxud orta məktəbin buraxılış sinfində oxuması haqqında arayış;*

*-orta məktəbdən, iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;*

*-yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;*

*-hərbi xidmətə çağırış məntəqəsinə təhkimedilmə vəsiqəsinin əsli və surəti;*

*-2 ədəd 9x12 sm ölçüdə, 4 ədəd isə 4x6 sm ölçüdə fotoşəkil (başıaçıq, rəngli).*

Sənədlər aprelin 1-dən 30-dək (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində (Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi 25) qəbul ediləcək.

***Əlaqə telefonu: 545-41-66***

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Sevil İbrahimova və mərkəzin kollektivi iş yoldaşları Zülfiyyə Mərdanovaya, əzizi
**İLHAMƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 318